# Quzey Azərbaycanın işğalı

## Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması

Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

***Gürcüstanın müstəqil qala bilən Kartli, Kaxet çarlıqları ruslar tərəfindən istila edildikdən sonra Azərbaycan istiqlalı da təhlükəyə düşdü. Kuzey Azərbaycanın işğalına rusların Qacar Dövləti və Osmanlı İmperatorluğu ilə etdiyi müharibələr də səbəb olmuşdur. Rusiya İmperatorluğunun Azərbaycan ilə Qafqazı zəbt və Anadolunu istila və boğazlar sahilinə yerləşərək Aralıq dənizinə çıxmaq məqsədinin təmini üçün Azərbaycanı istila etmək ruslar üçün birinci hədəf olmuşdur.Bu savaşlar nəticəsində iki Türk hökuməti olan Qacarlar və Osmanlı İmperatorluğu zəif və Kuzey Azərbaycan hüdudlarından uzaq qaldılar və Qafqaz əhalisi də altmış il qəhrəmancasına mübarizə və müdafiəsinə baxmayaraq, nəhayət Rusiyanın boyunduruğu altına girdi.***

Kartli və Kaxeti ruslar tərəfindən işğal edildikdən sonra ruslar Axıska və Car Baləkən vilayətlərini də zəbt elədilər. Zahirən Gürcüstanı himayə məqsədi ilə Gürcüstana girən Sisyanov bununla təbii ki, kifayətlənmədi və məqsədinə çatmaq üçün Gəncə üzərinə ordusu ilə hücuma keçdi.Gəncəyə hücumla Birinci Rus-Qacar Savaşı 1804-1813 başladı.

### Gəncə müharibəsi

Gəncə şəhəri Azərbaycanın açarı misalında idi.Gəncə qalası və xanlığının ərazisinə hücum çəkən rus ordusu tərəfindən 2 dekabr 1803 –cü ildə mühasirəyə alındı.Qalanın qəhrəmancasına müdafiəsi 4 yanvar 1804-cü ilə qədər davam etmişdi.Rusların Gəncəni zəbtinə səbəb,Gürcüstana verdiyi vergini bağışlamağa məcbur etmək idi isə də,həqiqətdə Kuzey Azərbaycan və Gəncə xanlığının Qacar Dövləti ilə münasibətlərini kəsmək idi.Sisyanov şəxsən özü ordunun başında duraraq,Gəncə üzərinə yürüdü və o zaman Gəncə hökmdarı olan Cavad xandan şəhərin təslimini tələb elədi.Gəncə qalası rus ordusu tərəfindən mühasirəyə alındı. Gəncə qəhrəmanı Cavad xan isə rus generalına : “Əcəliniz deyəsən yaxınlaşmışdır,yəqində görürsünüz !-deyə cavab verdi.Ruslar şəhərin əhatə və mühasirəsini davam etdirdilər.Mühasirə uzun sürdü və mühasirə zamanı ruslar təkrar Cavad xana məktublar yazıb təslim olması təklifini irəli sürdülər.Cavad xan hər dəfəsində təkliflərini rədd edərək,məktublarının birində: “Harada görülmüş ki, ruslar müsəlmanlardan artıq şücaətli olsunlar ?...” -deyə cavab vermişdi və nəhayət son məktubunda rus tələbinə qarşı : “Mən sağ qaldıqca ,şəhər təslim ,olmayacaqdır ! “-deyə cavabını göndərdi. Gəncə qalası 8 metr hündürlüyündəki iki divarı və 6 bürcü olan güclü qala idi.

Ruslar getdikcə mühasirəni şiddətləndirdilər və sonunda şəhərin Qarabağ qapılarına iki dəhşətli hücum,icra və top atəşi ilə qapıları təxrib etdilər isə də,bir şey edə bilmədilər.Savaş zamanı dağıdılan yerlərə dərhal Cavad xan özü gələrək,şəxsən müdafiəni gücləndirdi.Cavad xan şəhərin və əhalinin ruhu misalında idi.Gəncə şəhərinin hansı yerində görünürdüsə,dərhal oranın müdafiəsini təmin edər idi.Rusların çox böyük iki hücumu böyük tələfatla dəf edildi.Ruslar əlavə yenidən böyük ordu alaraq üçüncü bir hücum etdilər və xain Gəncə ermənilərinin rus ordusu ilə gizli münasibətinin nəticəsi olaraq bu üçüncü hücum heç gözlənilməyən Tiflis qapılarından icra elədilər.Dərhal Cavad xan buraya yetişərək düşməni sıxışdırdı isə də, təəssüf, burada Cavad xan ortancıl oğlu Hüseynqulu xan ilə bərabər şəhid düşdü və bu qəhrəmanın faciəli şəhadətindən sonra müdafiənin mənəviyyatı qırıldı və nəhayət,ruslar 1804-cü ilin yanvarın dördündə şəhərə girdilər və sabahdan axşama qədər məhəllə müharibələri edildi və nəticədə şəhər təslim olmağa məcbur qaldı.




### Gəncənin süqutunun nəticələri

*1.Gəncəlilərin qəhrəmanlıqla şəhərlərini müdafiəsi rusları daha çox qəzəbləndirdiyindən şəhərin adı dəyişdirilərək, rus çariçası şərəfinə Yelizavetpol adı ilə Rusiyaya ilhaq olundu.*

*2.Gəncə kimi qüvvətli bir Azərbaycan xanlığı süqutu və rus ordusu Azərbaycanın ən mühüm bir mərkəzini zəbt etdikdən sonra Gəncənin ətrafında olan Qarabağ,Şəki xanlıqları da təslimə məcbur oldular.*

*3.Gürcüstanın qərb tərəfində olan Minqrel,İmeret,Quriya kimi kiçik gürcü çarlıqları müqavimətsiz ruslara təslim oldular.*

*4.Gəncənin süqutundan sonra sair Azərbaycan xanlıqlarının da ruslar tərəfindən istilası çox asan oldu.*

### Siyasi və hərbi hadisələr

### Azərbaycanda Abbas Mirzənin islahatları

O zaman Qacar qoşunlarının yaxşılaşdırılması və nizami bir şəklə salınmasında Avropa üzərində basqın edərək arasıkəsilməz qələbələr çalan Napoleonun böyük rolu olmuşdu.Napoleon Qacar Dövlətinə öz qoşununu Avropa qaydası ilə təşkil edib nizama salmağı təklif etmişdir.Abbas Mirzə bu təklifi böyük sevinclə qəbul etmişdi.Əsgər geyimi hazırlamaq üçün toxucu dəzgahların,top və tüfəng istehsal edən maşınların təşkil edilməsi nəticəsində,Abbas Mirzənin yorulmaz səyi,tükənməz ciddiyyəti ilə az bir müddətdə Qacar qoşunu fəlakətli vəziyyətdən çıxarılaraq Avropanın ən qüdrətli qoşunlarından Fransa qoşunu səpkisinə daxil edilmişdi. Fransız hərbi təlimatçılarının köməyi ilə nizami ordu yaradıldı.

***Abbas Mirzə qoşunların bölüklərə (dəstələrə) bölünməsi və onların adlarının təyin edilməsi işində də xüsusi səy göstərmiş,hərbi rütbələrin adını dəyişib,sıra nəfərinə ‘sərbaz” adını vermişdir.Habelə müxtəlif bölüklər başçılarına ‘sərcoxə”, ‘naib”, ‘sultan”,”yavər”, ”sərhəng”,”əmirgəncə”, ”əmirtuman” və ‘sərdar” adlarının verilməsini təmin etmişdir.***

Ruslar Gəncədən sonra qərbə doğru yürüdülər və Qara kilsəni zəbt etdilər.Ruslar birinci növbədə Qacar Dövlətinə tabe olan Qacar xanlıqlarını Gəncə və İrəvan xanlıqlarını məhv etməyi düşünmüşdülər.

### Birinci İrəvan mühasirəsi

Ruslar İrəvan xanına Qacar Dövlətindən yardım gələcəyinin xəbər aldıqlarından İrəvan üzərinə hərəkətlərini sürətləndirdilər.İlk döyüş 1804-cü il iyulun 2-də baş verdi.Qacar Dövlətindən də Abbas Mirzənin başçılığı ilə Qacar ordusu “Qırxbulağa” gəldi və Gəncə tərəflərdən Qazax-Şəmsəddinli qəbilələri də gəlib bunlara birləşdilər.Ruslar ilə kiçik bir toqquşmadan sonra mövqelərinin fənalığı üzündən Qacar ordusu Sədərəkə çəkildi.Qacar sərdarı,vəliəhd Abbas Mirzənin başçılığı altında ruslar əleyhinə göndərilmiş olan Türk qəbilələri ilə birlikdə Azərbaycan qüvvələrinə biz burada sadəcə “İslam ordusu” deyəcəyik.Ruslar İrəvanı mühasirə edib,böyük toplar ilə şəhəri bombarman etdilər isə də,əhali çox şücaətli bir surətdə şəhəri müdafiə elədi.Vəziyyəti Abbas Mirzə Qacar şahına xəbər verdiyindən şah müqavimət üçün İsmayıl bəy Damğanlı komandası altında olan ordunu Sultaniyyədən dərhal göndərdi.Ruslar ilə şiddətli müharibə oldu.Bu müharibədə şahsevənli Əliqulu xan və qacarlı Pirqulu xanın yardımı ilə ruslar məğlub oldular və İrəvan iki ay mühasirədən sonra xilas edildi.Burada ruslar dörd mindən artıq tələfat verdikdən sonra Tiflis istiqamətinə qayıtmağa məcbur edildilər.Çoxlu qənimətlər alındı.Abbas Mirzə İrəvanda Məhəmməd xanı və Naxçıvanda Kəlbəli xanı mövqelərində sərbəst buraxaraq özü Qacar Dövlətinə geri döndü.

### Bakının istilası

Ruslar Kuzey Azərbaycanda kiçik və güclü müdafiədən məhrum olan xanlıqları bir birinin ardınca istila elədi.Bu dəfə növbəti istila üçün Bakı seçildi. Şamaxı xanlığının tabe edilməsindən sonra Bakıya yol açıq idi.1805-ci ilin əvvəllərində Qafqazdakı rus qoşunlarının baş komandanı Gilani tutmaq geri qayıdarkən isə Bakını ələ keçirmək üçün rus donanmasını Xəzərə göndərməyi qərara aldı.General Zavalşinin başçılığı ilə böyük qüvvələr ilə Bakı üzərinə yürüdülər.Bu əsnada Quba xanının böyük bir qüvvə ilə Bakıya köməyə tələsdiyinin xəbərini alması üzündən dərhal ordusu ilə geri qayıtmağı üstün tutdu.Bu iki xanlığın birləşməsi rusların böyük qüvvəsini geri çəkilməyə məcbur elədi.Azərbaycan xanlıqlarının hamısı beləcə birləşmiş olsa idi, məmləkətlərini şübhəsiz rus istilasındann qurtarmağa nail olurlardı.

Təəssüf ki, birlik yerinə aralarında nifaq və parçalanma baş verdi.Tiflisdə olan rus ordusunun baş komandanı general Sisyanov general Zavalşinin qayıtması xəbərini almaqla çox mütəəsir olduğundan şəxsən özü yeni qüvvələrlə Bakı üzərinə hərəkət elədi və Bakı xanı Hüseynqulu xana yazdığı məktubunda “Ya mən ölərəm,ya Bakını alarım!” demiş isə də,general Sisyanov Bakı qalasını ala bilməmiş və burada qətlə yetirilib dəfn olunmuşdur.Bu sıralarda Abbas Mirzə min nəfər əfşar süvarisini Bakıya göndərmiş idi.Ardınca da Əhməd xanın başçılığı ilə bir dəstə süvari cəbhəyə göndərilmişdi. Abbas Mirzə özü də Muğana hərəkət edərək Ərdəbilə çatanda vaxtı ilə Şirvana göndərdiyi süvari qüvvələrinin komandanı olan Pirqulu xandan bir raport aldı.Bunda rusların Şirvan hökuməti ilə sülh bağlayıb Bakı üzərinə hərəkət etdikləri və Sarı adasından dəniz yolu ilə bir rus ordusu Bakı şəhərini təyziq və bombardman elədiyi və Azərbaycan Türklərinin müqavimət və hücumlarının təsiri və Xəzərdəki fırtına sayəsində ərzaq gətirilməsinin çətinliyi və qışın şiddəti kimi amillərin müqaviməti ilə rus ordusunun hücumları nəticəsiz qaldığından general Sisyanov sülh bağlamaq təklifində olduğu və bir xeyli hiylələrə əl atmaqla yavərləri ilə bərabər Bakı hökumət adamları ilə danışığa təşəbbüs edərək görüş zamanı qətl edildiyi və rus ordusu çaşqınlığından həmin dəniz ilə geri çəkildiyi bildirilirdi.

***Bu hadisəyə görə səfərə eytiyac qalmadığından Abbas Mirzə geri qayıtdı.Bir il sonra Bakının təslimi və ya istilası üçün rusların daha böyük yeni qüvvələr ilə Bakı üzərinə yürüyüb,şəhəri zəbt Rusiyaya ilhaq etdilər.Bakıda dəfn olunmuş Sisyanovun başsız cənazəsi Tiflisə götürüldü və qətlin araşdırılması haqqında bir çox təhqiqat nəticəsində Sisyanov Bakı xanı Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürülərək başı kəsilmişdi.Bununla şəhid Cavad xanın Gəncənin intiqamı alınmışdı. Hüseynqulu xan Pavel Dmitriyeviç Sisyanovun kəsilmiş başını Abbas Mirzəyə göndərmiş,o isə rus komandanının başını bir qutuya qoyaraq müharibədən alınan qiymətli qənimət kimi Qacar şahı Fətəli şaha göndərmişdi. Ruslar yekun araşdırmada İbrahim bəy tərəfindən qətlin icra edildiyi nəticəsinə gəldilər.Bununla istintaqı və araşdırmanı dayandırdılar.***

### Bakı xanlığının süqutunun nəticələri

1.Bakıdan sonra Quba xanlığı düşmən tərəfindən zəbt edildi.

2.Ruslar Dağıstanda mövqelərini möhkəmlətdilər.

3.Xəzər dənizində rusların hakimiyyəti təmin edildi.

### Şəkinin istilası

***Rusların Bakı,Şirvan,Dərbənd xanlığından sonra Şəki xanlığının üstünə hücum edəcəklərini Şəki xanı Səlim xan da hiss edirdi.Buna görə Səlim xan Qacar Dövlətindən silah və bir miqdar pul tədarük etməklə dağlıq ərazi sakinlərindən və car deyilən tayfalardan əsgər toplayaraq,ruslar ilə iki böyük müharibə etdi və hər dəfəsində rusları məğlub və pərişan etdisə də,əsgərləri evlərinə dağıldığından,Səlim xan yalnız qaldı və artıq müqaviməti faydasız görərək Ərdəbilə Qacar Dövlətinin içlərinə çəkildi.1806-cı il oktyabrın 22 –də Səlim xanı ordusu onu tərk etdiyi üçün xanlıq ərazisini tərk etməyə məcbur olmuşdu. Ruslar Şəki xanlığının mərkəzi Nuxaya girdilər və xanlığı zəbt və Rusiyaya ilhaq etdilər.***

> ***Napoleon Qacar Dövlətinə öz qoşununu Avropa qaydası ilə təşkil edib nizama salmağı təklif etmişdir.Abbas Mirzə bu təklifi böyük sevinclə qəbul etmişdi.Əsgər geyimi hazırlamaq üçün toxucu dəzgahların,top və tüfəng istehsal edən maşınların təşkil edilməsi nəticəsində,Abbas Mirzənin yorulmaz səyi,tükənməz ciddiyyəti ilə az bir müddətdə Qacar qoşunu fəlakətli vəziyyətdən çıxarılaraq Avropanın ən qüdrətli qoşunlarından Fransa qoşunu səpkisinə daxil edilmişdi...***

(ardı var)